

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 202 (23.113)

23 oktyabr 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin İmişli şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Həmin gün İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli rayonuna səfəri çərçivəsində Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin, İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, Bayraq Muzeyinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının, “ASAN Həyat” kompleksinin açılışlarında iştirak edib.




# Babək rayonunun 40 illik yubileyi qeyd olunmuşdur





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 16-da “Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında” Sərəncam imzalamış, Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planına əsasən rayonda geniş quruculuq işləri aparılmış, Babək qəsəbəsində dövlət qurumları və ictimai təşkilatlar üçün inzibati bina əsaslı şəkildə yenidən qurulmuşdur.

Oktyabrın 22-də Babək rayonunda dövlət qurumları və ictimai təşkilatlar üçün inzibati bina istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri inzibati binanın yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivləri təbrik edərək demişdir: Bu gün Babək rayonunun 40 illik yubileyi qeyd olunur. Ötən 40 ildə Babək rayonu şərəfli inkişaf yolu keçmişdir. Rayonun inkişafında və formalaşmasında dövlət qurumları ilə yanaşı, ictimai təşkilatların kollektivləri də fəal iştirak edərək əmək sərf etmişlər. Bütün bunların nəticəsidir ki, Babək muxtar respublikamızın qabaqcıl inkişaf etmiş rayonlarından birinə çevrilmişdir.

Ali Məclisin Sədri Babək rayonunun inkişafında fəaliyyəti olanların hər birinə təşəkkür etmişdir.

Babək Rayon Ağsaqqallar Şurasının sədri Tofiq Abutalıbov minnətdarlıq edərək demişdir: Bu gün muxtar respublika tarixinin inkişaf dövrünü yaşayır, şəhər, qəsəbə və kəndlərimiz yenidən qurularaq müasir görkəm alır. Görülən işlər Babək rayonunda da uğurla davam etdirilir. Açılışına toplaşdığımız inzibati binada fəaliyyət göstərən dövlət orqanları şəraiti olmayan vəziyyətdə əhaliyə xidmət göstərirdilər. Lakin bu gün dövlət qurumlarının və ictimai təşkilatların rahat işləmələri və əhaliyə nümunəvi xidmət göstərmələri üçün hər cür şərait yaradılmışdır. İnzibati bina bütün növ inventar və avadanlıqlarla təchiz edilmişdir. Əmin edirik ki, yaradılan şəraitdən bəhrələnərək əhaliyə nümunəvi xidmət göstərəcəyik.

Sonra Ali Məclisin Sədri binanın açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, inzibati bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Binada rayonun 8 dövlət orqanı və 5 ictimai təşkilatı üçün müasir iş şəraiti yaradılmışdır. Birinci mərtəbədə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Babək Rayon İdarəsi, Babək Rayon Ağsaqqallar Şurası, Babək bələdiyyəsi, ikinci mərtəbədə Babək Rayon Dövlət Sığorta Agentliyi, “Şərqin səhəri” qəzetinin redaksiyası, Statistika İdarəsi, üçüncü mərtəbədə rayon Birləşmiş Həmkarlar İttifaqları Komitəsi, Məşğulluq Mərkəzi, Babək Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika İctimai Birliyinin Babək Rayon Şöbəsi, Qızıl Aypara Komitəsinin Babək Rayon bölməsi və Babək Rayon Gənclər və İdman İdarəsi yerləşir.

Binanın dördüncü mərtəbəsində Babək Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin, zirzəmi qatında isə mərkəzin bakterioloji, sanitar-kimyəvi və parazitoloji laboratoriyaları üçün lazımi iş şəraiti yaradılmış, bufet istifadəyə verilmişdir.

Binanın ətrafında abadlıq işləri aparılmış və yaşıllıq sahəsi salınmışdır.

Həmin gün Babək Rayon Mədəniyyət Evində Babək rayonunun 40 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir.

Ali Məclisin Sədri Mədəniyyət Evinin foyesində Babək rayonunun sosial-iqtisadi inkişaf göstəricilərinə həsr olunmuş stendlərə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək rayonunun təşkil olunmasının 40 illik yubileyi münasibətilə tədbir iştirakçılarını, Babək rayonunun əhalisini təbrik edərək demişdir: 40 il bundan əvvəl Babək rayonunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndər bir tərəfdən milli şüurun bərpası istiqamətində tədbirlər həyata keçirir, digər tərəfdən isə regionlarda geniş quruculuq işlərinin aparılması, dağ, eləcə də sərhəd kənd və rayonlarının möhkəmləndirilməsi, yeni qəsəbələrin, rayonların yaradılması barədə qərarlar qəbul edirdi. O dövrdə yeni yaranan rayonlardan biri də Naxçıvan Muxtar Respublikasının Babək rayonu idi. 1978-ci ildə xalq qəhrəmanı Babəkin adını daşıyan rayonun yaradılması Heydər Əliyev milli quruculuq strategiyasının nəticəsi kimi mühüm əhəmiyyətə malikdir.

Ali Məclisin Sədri demişdir: Yarandığı dövrdən ötən illər ərzində Babək rayonu böyük inkişaf yolu keçmiş, ulu öndərimizin





Ardı 2-ci səhifədə

quruculuq xətti rayonun görkəmini dəyişmiş, onu müasir və inkişaf etmiş rayona çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə Babək rayonunun sosial-iqtisadi inkişafı sahəsində əsaslı tədbirlər görülmüş, geniş quruculuq işləri aparılmışdır. Ölkə Prezidentinin 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən Hacıvar-Vayxır-Sirab, 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu, həmçinin Yarımca-Qahab-Nəcəfəli Dizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulmuşdur. Rayon mərkəzində və kəndlərdə müasir şəhər infrastrukturu yaradılmış, təhsil, səhiyyə, mədəniyyət ocaqları, inzibati binalar və xidmət sahələri, emal müəssisələri tikilərək istifadəyə verilmişdir.



Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən 2008-ci ildə Babək rayonunun 30 illik yubileyi geniş qeyd olunmuşdur. Yubileydən ötən 10 il ərzində Babək rayonunda 26 təhsil, 29 səhiyyə, 28 mədəniyyət müəssisəsi, 43 inzibati bina, 11 körpü, 130 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilmiş və yenidən qurulmuş, müasir avtomobil yolları çəkilmişdir. Babək rayonunda yeni texnologiyaların tətbiqi sahəsində də böyük uğurlar qazanılmış, rayon ərazisi rabitə xidməti və internetlə təmin olunmuş, rayondakı ümumtəhsil məktəblərində 791 kompüter və 96 elektron lövhə quraşdırılmışdır. Son illər müxtəlif profilli yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması nəticəsində Babək rayonu aqrar rayondan aqrar-sənaye rayonuna çevrilmişdir. Ötən 10 ildə rayonda sənaye məhsulunun həcmi 5 dəfə artmışdır. Hazırda rayonda 62 adda sənaye məhsulu istehsal olunur.

Ali Məclisin Sədri demişdir: Babək rayonu kənd təsərrüfatı sahəsində Naxçıvan Muxtar Respublikasının qabaqcıl rayonlarındandır. Burada əkinçiliyin və heyvandarlığın inkişafı sahəsində mühüm nailiyyətlər qazanılmışdır. Fermer və torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin artırılması, ailə təsərrüfatlarının formalaşdırılması, texnika və avadanlıqlarla təminatın yaxşılaşdırılması, meliorasiya tədbirlərinin gücləndirilməsi, yeni açıq və qapalı suvarma xətlərinin çəkilməsi kənd təsərrüfatının inkişafına əhəmiyyətli təsir göstərmiş, ötən illərdə rayon ərazisində 6826 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2017-ci ildə muxtar respublika üzrə kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun 20 faizi, yaxud 96 milyon manatı Babək rayonunun payına düşmüşdür.

Müstəqillik illərində Babək rayonu müasir yaşayış məntəqəsinə çevrilmişdir. Ötən dövrdə rayonun əksər kəndlərində kompleks quruculuq işləri aparılmış, rayon mərkəzində yeni inzibati və yaşayış binaları tikilmişdir. Bu gün Babək rayonunda bir məktəbəqədər təhsil müəssisəsi, 36 ümumtəhsil məktəbi, 5 uşaq musiqi məktəbi, 2 muzey, 36 kitabxana, 17 mədəniyyət evi, 13 klub, 3 xəstəxana, 13 həkim ambulatoriyası, 18 feldşer-mama məntəqəsi və gigiyena epidemioloji mərkəz fəaliyyət göstərir. Rayonda böyük sahibkarlar sinfi formalaşmışdır. Özəl bölməyə göstərilən qayğıdan səmərəli istifadə nəticəsində yeni istehsal müəssisələri yaradılmışdır. Davamlı sosial-iqtisadi inkişafın, müasir infrastruktur və əhali məşğulluğunun təmin olunması rayonda demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, 1 oktyabr 2018-ci il tarixə Babək rayonunda əhalinin sayı 1978-ci ilin sonu ilə müqayisədə 32 min nəfər və ya 75 faiz artaraq 75 min nəfəri keçmişdir ki, onun da 39 mini məşğul əhalidir.

Ali Məclisin Sədri demişdir: Babək rayonunun inkişafından danışarkən rayon əhalisinin zəhmətini və yaradıcı əməyini xüsusilə qeyd etmək lazımdır. Çəkilən böyük zəhmət və seçilən düzgün yol rayonu davamlı inkişafa qovuşdurmuşdur. Babəklilər hər zaman ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sədaqət göstərmişlər və hazırda da bu yolu davam etdirir, ölkəmizin, eləcə də muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər. Rayon sakinlərinin əməyi daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Müstəqillik illərində rayon sakinlərindən 114 nəfəri ölkəmizin müxtəlif orden, medal və fəxri adlarına, 13 nəfəri Prezident təqaüdü və mükafatına, 55 nəfəri Naxçıvan Muxtar Respublikasının müxtəlif fəxri adlarına, 44 nəfəri "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarına layiq görülmüşdür.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Azərbaycana bəxş etdiyim töhfələr – zavodlar, buruqlar, binalar, obyektlər, abidələr, yeni qəsəbələr mən həyatda olmayanda da Heydər Əliyevin izləri kimi yaddaşlarda yaşayacaqdır".*** Bu gün yaranmasının 40 illiyini qeyd etdiyimiz Babək rayonu və Babək qəsəbəsi də ulu öndərimizin yadigarları kimi yaşayır və inkişaf edir.

Ali Məclisin Sədri Babək rayonunun gələcəkdə daha böyük inkişafa qovuşacağına əminliklə bir daha yubiley münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış edərək demişdir ki, bu gün muxtar respublikanın digər rayonları kimi Babək rayonunun da qəsəbə və kəndləri müasir infrastruktura malikdir. 1996-cı ildən başlayaraq rayonda kompleks quruculuq tədbirləri həyata keçirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, əhalinin səmərəli məşğulluğu təmin edilmişdir. Hazırda rayonda yüngül, yeyinti, kağız, karton və poliqrafiya, tikinti sahələrini əhatə edən 70-dən artıq müəssisə fəaliyyət göstərir. 2017-ci ildə muxtar respublikada qeydə alınmış ümumi məhsul istehsalının 10,8 faizi Babək rayonunun payına düşüb. Aparılmış tədbirlərin nəticəsi olaraq 2017-ci ildə rayonda 16 min 172 hektar torpaq əkilmişdir ki, bu da 1978-ci ildəki göstəricidən 1,7 dəfə çoxdur. Bu dövrdə dənli və dənli-paxlalılar əkini 1,5 dəfə, kartof əkini 18,3 dəfə, tərəvəz əkini 13,7 dəfə, ərzaq üçün bostan bitkiləri əkini 18 dəfə, meyvə və giləmeyvə bağlarının sahəsi isə 8 dəfəyə yaxın artmışdır.

Qeyd olunmuşdur ki, 2000-ci ildən ötən müddət ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda kənd təsərrüfatı yönümlü 207 layihənin maliyyələşdirilməsinə 3 milyon 515 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində rayonda 55 heyvandarlıq, 14 quşçuluq, 25 arıçılıq, 20 bağçılıq, bir balıqçılıq təsərrüfatı və 5 istixana kompleksi yaradılmışdır. Son 20 ildə rayonda 41 təhsil ocağı, o cümlədən 13 min 136 şagird yerlik 35 ümumtəhsil məktəbi, 1 uşaq bağçası, 5 uşaq musiqi məktəbi, 34 səhiyyə obyekti, 28 mədəniyyət obyekti, 3 idman obyekti, 63 inzibati bina, 161 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmiş, 2017-ci ildə rayonda, ümumilikdə, 17 min 480 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir. Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq bu gün rayon ərazisinin 98 faizi sürətli internetlə təmin edilmişdir. Son dövrlər Babək rayonunda yeni iş yerlərinin açılması geniş vüsət almış, 2004-cü ildən 1 oktyabr 2018-ci il tarixədək 8746 yeni iş yeri açılmışdır ki, bunun da 6862-si və ya 78,5 faizi daimi iş yerləridir.

Yubiley tədbirində çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov demişdir ki, muxtar respublika rəhbərinin yüksək diqqət və qayğısı sayəsində bu gün Babək rayonu intibah dövrünü yaşayır. Belə ki, Babək qəsəbəsi və kəndlərimiz kompleks şəkildə abadlaşdırılmış, rayonun qəsəbə və kəndləri fasiləsiz təbii qaz, elektrik enerjisi, həmçinin dayanıqlı rabitə, poçt, geniş zolaqlı və simsiz internet xidmətləri ilə təmin edilmişdir. Rayon mərkəzində yerləşən idarə, müəssisə və təşkilatlar üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Bu gün rayonda fəaliyyət göstərən təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin böyük əksəriyyəti yeni tikilmiş və yaxud əsaslı surətdə yenidən qurulmuş binalarda yerləşirlər. Muxtar respublikada yol-nəqliyyat sisteminin müasir tələblər səviyyəsində qurulması, rahat və təhlükəsiz hərəkətin təmin edilməsi ilə bağlı layihələr Babək rayonunda uğurla icra olunmuşdur. Ötən dövrdə Babək rayonunun da yol infrastrukturu yenilənmiş, yeni yollar salınmış, körpülər tikilmişdir.

Qeyd olunmuşdur ki, 2018-ci ilin ötən dövründə Babək rayonu ərazisində yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilmiş, Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsinin, Babək qəsəbəsində 7 mərtəbəli 28 mənzilli yeni yaşayış binasının açılışı olmuş, məscid binası yenidən qurulmuş, mərasim evi tikilmişdir. Babək rayonunun ucqar dağ və sərhəd yaşayış məntəqələri olan Aşağı və Yuxarı Buzqov kəndlərində də kompleks quruculuq işləri aparılmış, infrastruktur yenilənmişdir. Həmçinin Nehrəm kəndindəki tarixi "İmamzadə" türbəsi də bərpa olunmuşdur. Rasim Hüseynov "Babək rayonunun təşkil olunmasının 40 illiyi" və yubiley münasibətilə rayon sakinlərinin təltif olunması ilə əlaqədar imzaladığı Sərəncamlara görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikasının fəxri adlarına və "Rəşadətli əməyə görə" nişanına layiq görülənlərə müvafiq təltiflərin təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 19 oktyabr tarixli Sərəncamına əsasən Babək rayonunun inkişafında fəaliyyətlərinə görə rayon sakinlərindən 2-si "Əməkdar dövlət qulluqçusu", 3-ü "Əməkdar müəllim", 2-si "Əməkdar həkim", 2-si "Əməkdar kənd təsərrüfatı işçisi", 1-i "Əməkdar mühəndis" fəxri adları, 4-ü isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri fəxri adların döş nişanlarını və vəsiqələrini, eləcə də "Rəşadətli əməyə görə" nişanını təqdim etmişdir.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

"Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuş Mirkərim Seyidov demişdir: Bu gün ulu öndərimizin əsəri olan müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası etibarlı əllərdədir. Bütün sahələrdə inkişaf, tərəqqi var. Təhsil də hərtərəfli qayğı ilə əhatə olunub. "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmağımı təhsil işçilərinə göstərilən qayğı kimi dəyərləndirirəm. Çalışacağam ki, bundan sonra da öz fəaliyyətimlə ölkəmizin inkişafına töhfə verim:

Yüz min loğman yetirib, neçə şair, bəstəkar,
Vurğunumun dilində dolanıb diyar-diyar.
Məmməd Araz eşitsin, ya da şair Bəxtiyar,
Xoşbəxtəm ki, bu yurdun torpağıyam, daşıyam,
Mən bir qeyrət simvolu, yurdun vətəndaşıyam.

Sonra Naxçıvan Dövlət Televiziyasının Babək rayonunun 40 illiyi münasibətilə hazırladığı "Babək rayonu: dünən və bu gün" sənədli filminə baxış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan iqtisadiyyatının investisiya cazibədarlığı yüksəkdir

*Hərtərəfli inkişafın əsas göstəricilərindən biri güclü iqtisadiyyata sahib olmaqdır. Bu mənada, ölkəmizin ümumi inkişaf mənzərəsində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan uğurlar öz davamlılığı ilə seçilir. Muxtar respublika iqtisadiyyatı, onun insan rifahına xidmət edən stabil artım dinamikası davam etdirilməkdə və güclü iradə hesabına sürətlənməkdədir.*

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən olunmuş iqtisadi inkişaf strategiyası müasir uğurlarımızın əsasını təşkil edir. Ölkəmizdə regionların inkişafının diqqət mərkəzində saxlanılması istiqamətində qəbul edilmiş mühüm dövlət qərarlarının icrası Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişaf etməsinə zəmin yaradıb. Qədim diyarın zəngin yeraltı, yerüstü təbii sərvətlərinin, əmək ehtiyatları və turizm potensialının fəal olaraq iqtisadi dövriyyəyə cəlb olunması bir zamanlar burada möcüzəvi görünən iqtisadi layihələri artıq reallığa çevirib. Naxçıvanda həyata keçirilən iqtisadi layihələr, irimiqyaslı infrastruktur quruculuğu tədbirləri bu diyarın investisiya cazibədarlığını da artırıb. Nəticədə, Naxçıvan bir çox göstəricilər üzrə investisiya cazibədarlığı reytingində ölkəmizin regionları arasında lider mövqeyinə çatıb.

İqtisadi inkişaf insan amilindən asılı olduğu kimi, onun nəticələri də insan kapitalının formalaşmasına xidmət edir. Bu strateji xəttə dönmədən əməl edilməsi muxtar respublikamızın sosial-iqtisadi həyatının bütün sahələrində öz bəhrəsini verməkdədir. Bu mənada, sosial infrastruktur sahələrinin inkişaf etdirilməsi muxtar respublikada iqtisadiyyatın dinamik inkişafının və investisiya cazibədarlığının mühüm göstəricilərindən biridir. Belə layihələr kimi təhsil, səhiyyə obyektlərinin tikilişini, turizm və rekreasiya komplekslərinin yaradılması ilə yanaşı, alternativ enerji, rabitə və yüksək texnologiyalar sahəsində görülmüş işləri, müasir standartlara cavab verən yolların çəkilişini misal göstərmək olar. Bu da öz nəticəsini real sektora qoyulan sərmayədə göstərir.

Çoxlarına təəccüblü görünsə də, indi Naxçıvan minik avtomobillərinin istehsal olunduğu, deməkolar ki, bütün ərazisində 4G mobil rabitə şəbəkəsinin xidmətlərindən istifadə edildiyi, yaxın regionda ən güclü Günəş Elektrik Stansiyasının işə salındığı, ildə 450 minə yaxın turistin səfər etdiyi bir məkana çevrilib.

Naxçıvanda əhalinin həyat səviyyəsinin yüksəlməsi və eyni zamanda su ehtiyatlarının qeyri-bərabər paylanması bu diyarda içməli su təminatını da həmişə ön plana çəkən səbəblərdəndir. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinin həyata keçirilməsi nəticəsində muxtar respublikada 135 min sakinin fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilməsi də əhalinin həyat səviyyəsini kökündən dəyişdirən amillərdəndir. Bu göstəricilər baxımından şəhərlə kəndin bir-birinə yaxınlaşması, əhali gəlirlərinin artırılması, məşğulluq və məskunlaşma məsələləri dövlətin daimi qayğısına çevrilib.

Muxtar respublikada mövcud olan bütün iqtisadi resurslardan səmərəli istifadə sahəsində geniş təcrübə formalaşıb. Bu təcrübənin müxtəlif sahələr üzrə uğurla tətbiq olunması iqtisadiyyatın şaxələndirilməsi kimi günün tələblərinin yerinə yetirilməsinə imkan yaradır. Bu baxımdan muxtar respublikada kəndliyə hər cür köməklik göstərilməsi, əl əməyinin yüngülləşdirilməsinə imkan verən ən müasir texnikaların gətirilməsi, emal müəssisələri, anbar və istixana şəbəkəsinin genişləndirilməsi bu sahədə yüksək nəticələr əldə etməyə imkan verib. Nəticədə, regionda taxıl, ət, süd, kartof, meyvə-tərəvəz məhsullarının, habelə yüksəkkeyfiyyətli Naxçıvan balının istehsalında yüksək nəticələr əldə olunmaqdadır.

Yaşadığımız torpağın tərəqqisi üçün yorulmadan çalışan fədakar insanlar gələcəkdə də bu yolu davam etdirərək, Naxçıvan iqtisadiyyatının dinamik inkişafını təmin edəcəklər.

**Əli CABBAROV**

# Naxçıvan qeydləri

*Türkiyənin Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin xətti ilə qardaş ölkənin bir qrup media nümayəndəsi oktyabrın 20-də Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Onlar ölkələrinə qayıtdıqdan sonra dogugazetesi.com, guvengazetesi.com.tr, gazetekars.com.tr, haberler.com, sanalbasın.com, yesiligdir.com.tr və Türkiyənin ən böyük informasiya portalı olan milliyet.com.tr saytlarında Naxçıvan səfərləri barədə məqalə və xəbərlər yerləşdirmiş, fotoşəkillər paylaşmışlar. Ərzincan Jurnalistlər Cəmiyyətinin sədri Mücahid Özdəmirin dogugazetesi.com saytında yerləşdirdiyi “Naxçıvan qeydləri” məqaləsini təqdim edirik.*





“Biri varmış, biri yoxmuş”, – deyə başlayan hekayələrdən biri haqqında danışmaq istəyirəm sizə. Söhbətimiz müstəqillik qazandıqdan sonra yenidən qurulan, müasir dövrümüzün tarix qoxusu gələn şəhərlərinə, yaşayış məntəqələrinə malik olan Naxçıvan Muxtar Respublikası barədədir.





Bir gün yolum Naxçıvana düşdü. Muxtar respublikanın ziyarətinə Türkiyənin Şərqi Anadoludakı Jurnalistlər cəmiyyətlərinin sədrləri ilə birlikdə getdik. Bu qədim diyarı gəzmək, yeni görüşlər keçirmək və media qurumları arasındakı əlaqələri gücləndirmək məqsədilə həyata keçirilən səfərimiz birgünlük idi. Dilucu sərhəd-keçid məntəqəsində son dərəcə nəzakətli, insanı başa düşən məmurlar tərəfindən qarşılandıq. Viza proseduru başa çatdıqdan sonra öz avtomobillərimizlə Naxçıvana qədəm basdıq.





Naxçıvan təmizliyi və qonaqpərvər insanları ilə qarşıladı bizi. Sərhədi keçər-keçməz əkin sahələrində işləyən insanlar marağımıza səbəb oldu. Toplanmış bol məhsul və zəmilərin ortasındakı mavi suvarma sistemləri diqqətimizi çəkdi.

Burada əkin sahələrinin suvarılmasında qapalı suvarma sistemlərindən istifadə olunmasını böyük heyrət və təəccüblə qarşıladım. Digər bir tərəfdən isə yolboyu torpağa basdırılmadan nizamla çəkilmiş təbii qaz xətləri heç alışmadığımız xoş görüntü yaradırdı.

Şəhərə doğru irəlilədikcə şahidi olduq ki, Naxçıvanda hər kəs bir nəfər kimi yol hərəkəti qaydalarına əməl edir. Kim spirtli içki qəbul etdikdən sonra avtomobil sürərsə, onu ciddi cəzalar gözləyir. Bu da yol qəzalarının sayının xeyli azalmasına səbəb olub. Xüsusilə qeyd etməliyəm ki, Türkiyədə alışdığımız sürət həddinin pozulması halları burada müşahidə olunmur. Yolların kənarına sürət lövhələri də vurulmayıb. Daha sərfəli bir metod seçilib. Hərəkət sürətini göstərən nişanlar asfaltın üzərinə yazılır. Bu isə iqtisadi baxımdan çox məntiqli bir addımdır.

Naxçıvan çox sakit bir şəhərdir. Bu səssizliyi, sadəcə, avtomobillərin səsi pozurdu. Həmin gün Naxçıvanda keçirilən bal festivalında iştirak etdik. Şəhərin bütün sakinləri müxtəlif çiçəkləri və yaşıllıqları ilə söz sahibi olduqları Naxçıvan balının festivalında idi. Böyük tarixi əhəmiyyəti olan Naxçıvanqalada musiqi, əyləncə və müxtəlif çeşidli balların satışı insanı valeh edirdi.

Möminə xatın türbəsinin ziyarəti ilə başladıq Naxçıvan səfərimizə. Açıq səma altındakı muzeydə nümayiş olunan və tarixən türklər tərəfindən yaradılan daş qoç heykəllərə maraqla baxdıq. Yaxınlıqdakı əl işləri də bu tarixi yerə ayrı bir hava qatırdı.



Türkiyədən olan tələbələrin böyük maraq göstərdikləri Naxçıvan Dövlət Universitetində də olduq. Bu universitetdə türkiyəli tələbələrə ilk 6 ayda Azərbaycan dili öyrədilir. Sonra isə onlar müvafiq ixtisaslar üzrə təhsil alırlar. Hətta onu deyim ki, Naxçıvana gəlmədən belə, Naxçıvan Dövlət Universitetinin bəzi ixtisasları üzrə distant təhsil almaq mümkündür.





Naxçıvan səfərimdə diqqətimi çəkən əsas cəhətlərdən biri də silahsız polislər oldu. Naxçıvanda Osmanlının ən güclü olduğu dövrlərdəki kimi oğurluq yoxdur. İnsanlar bir-biriləri ilə dava belə, etmirlər. Muxtar dövlətin bütün məmurları insanlarla iç-içədir. Üstəlik, mühafizəçilər belə, yoxdur.

Naxçıvan qonaqpərvər və canayaxın insanları, azan səsi ucalan məscidləri, qədim tarixi və bu gün də qorunub saxlanılan abidələri, təmiz küçələri və keyfiyyətli asfalt yolları, müasir memarlıq quruluşu ilə bütün türklərə bağrını açıb.

Və sonda qeyd edim ki, bu diyarda Duzdağa da getməyi unutmayın!

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır.*

## Payız mövsümü ilə əlaqədar tibbi müayinələr aparılır

Cari ilin payız mövsümünün dərin tibbi müayinələri oktyabrın 8-dən 31-dək həyata keçiriləcəkdir. Müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Hazırda tibbi müayinələr muxtar respublikanın hər bir yaşayış məntəqəsini əhatə edir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən isə bu il payız mövsümündə Naxçıvan şəhərinin 20 tam orta məktəbinin şagirdləri dərin tibbi müayinələrə cəlb ediləcək. Bu məqsədlə orta məktəblərdə çalışan tibb işçiləri xəstəxananın Poliklinika şöbəsinə dəvət olunub, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimləri tərəfindən müayinələrdən keçərək qruplaşdırılıblar.

Müayinələr ixtisaslı həkimlərdən ibarət briqada tərəfindən aparılır. Həftə ərzində dərin tibbi müayinələr Naxçıvan şəhərindəki 1, 2, 3, 4, 5, 7, 8 nömrəli tam orta məktəbləri və Qızlar Liseyini əhatə edib. Həmin məktəblərdə 4 min 92 şagird tibbi müayinədən keçirilib. Tibbi müayinələr vasitəsilə uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkar edilməsi təmin olunur və sağlamlaşdırıcı tədbirlər aparılır, profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyat sistemi təkmilləşdirilir, uşaqlar və valideynlər arasında xəstəliklərin profilaktikası məqsədilə maarifləndirmə işi gücləndirilir. Aşkar edilmiş xəstəliklərlə bağlı şagirdlərin kompleks müayinəsi üçün müvafiq səhiyyə müəssisələrinə göndərilməsinə göstəriş verilir.

* * *



*Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası Şərur rayonunun Tənənəm kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.*

Pediatr, stomatoloq, nevropatoloq, həkim rezident və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 30 uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. Valideynlər arasında səhiyyə maarifi işi aparılıb, “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” haqqında məlumat verilib. Uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Təhsil uğurları göstərilən dövlət qayğısının bəhrəsidir

***Bu gün muxtar respublika təhsili özünün uğurlu inkişaf dövrünü yaşayır. Hər il təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir, yeni məktəb binaları tikilir və yaxud əsaslı təmir olunur, təhsilin keyfiyyət göstəriciləri yaxşılaşdırılır.***

2018-ci ilin ötən 9 ayında muxtar respublikada 1426 şagird yerlik 4 ümumtəhsil məktəbi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, elmi dərəcəli işçilər tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçilməsi də diqqətdə saxlanılmışdır. Ötən dövrdə ümumtəhsil məktəbləri ilə muzeylər arasında 7, Naxçıvan Şahmat Mərkəzi ilə 6, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə 8, Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi ilə 5 interaktiv dərs keçilmişdir.

Muxtar respublikada gənc müəllimlərin işə qəbulu istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul imtahanında iştirak edərək müvafiq keçid balını toplamış gənc müəllimlər işlə təmin olunmuşdur. Şagirdlərin vətənpərvərlik tərbiyəsində xüsusi rolu olan ümumtəhsil məktəblərində fəaliyyət göstərən hərbi rəhbərlərin biliklərinin artırılması sahəsində də mühüm işlər görülmüş, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən ümumtəhsil məktəblərinin hərbi rəhbərləri üçün təlim-məşq toplantıları keçirilmişdir.

Təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikanın məzunlarının buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır. 2018-ci ildə tam orta təhsil bazasından sənəd verən abituriyentlərin 1552-si ali təhsil müəssisələrinə, 227-si müxtəlif ali hərbi məktəblərə, 244-ü isə tam orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olmuşlar. Ümumilikdə, tam orta təhsil bazasından ali və orta ixtisas məktəblərinə qəbul olan məzunların sayı 2023 nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın tələblərinə uyğun olaraq valideyn himayəsindən məhrum olmuş uşaqların, eləcə də ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş aztəminatlı, sağlamlıq imkanları məhdud uşaqların pulsuz məktəbli geyimləri və ləvazimatları ilə təminatı da diqqətdə saxlanılmışdır. 2018-2019-cu tədris ili üzrə bu kateqoriyadan olan 389 uşağa pulsuz məktəbli geyimi və ləvazimatları verilmişdir.

Muxtar respublikanın peşə təhsili müəssisələrini ötən dövr ərzində 1814 müdavim bitirərək müvafiq təhsil sənədi almışdır. Hazırda peşə məktəblərində 26 qrupda 516 müdavim təhsilini davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Dövlət qulluqçuları Ağbulaq İstirahət Mərkəzində oldular

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən muxtar respublikanın dövlət qulluqçuları üçün Ağbulaq İstirahət Mərkəzində təşkil olunmuş həftəsonu istirahətləri davam edir.***

Bu dəfə mərkəzin qonaqları Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Səhiyyə Nazirliyinin əməkdaşları oldular. Mərkəzdə qonaqlar üçün hər cür şərait yaradılıb. Buradakı səliqəli yataq otaqları, asudə vaxtın maraqlı təşkili üçün idman meydançası, stolüstü oyunlar və gözəl xidmət istirahətin xoş keçməsinə imkan verib. Axşam saatlarında qonaqlar üçün konsert proqramı təşkil olunub.

Mərkəzdə istirahət edən Səhiyyə Nazirliyinin əməkdaşı Sərxan Əkbərov öz təəssüratlarını bizimlə bölüşdü: "Mən ilk dəfədir ki, Ağbulaq İstirahət Mərkəzinə gəlirəm. Buranın təmiz havası, istirahətimiz üçün yaradılmış hərtərəfli şərait asudə vaxtımızı zövqlə keçirməyə səbəb oldu. İki günün necə başa çatdığını hiss etmədim. Belə şəraitə görə nazirliyin əməkdaşları adından minnətdarlığımı bildirirəm".

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) əməkdaşı Rəşid Talıbov bildirdi ki, o, ötən il də Ağbulaq İstirahət Mərkəzində olub. Burada yaradılan şəraitdən çox razıdır. Mərkəzdə təşkil olunan müxtəlif tədbirlər ikigünlük istirahətin maraqlı keçməsinə imkan verib.

Həmin təşkilatın digər bir əməkdaşı Mətin Quluzadə dağların qoynunda yerləşən Ağbulaq İstirahət Mərkəzinin muxtar respublikada kənd turizminin ən gözəl ünvanı olduğunu qeyd etdi. Bildirdi ki, burada bizim yaxşı vaxt keçirməyimizə, istirahətimizə xüsusi diqqət yetirilir. Məhz bu diqqət üçün mərkəzin kollektivinə minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, dövlət qulluqçuları bu dəfə ailələri ilə birlikdə dəvət olunublar. İki gün ərzində burada 61 nəfər istirahət edib.

13-14 oktyabr tarixlərində isə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Vergilər nazirliklərinin əməkdaşlarından ibarət 52 nəfərlik kollektivin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunmuşdu.

**Aygün BAĞIROVA**

***Öz dadı, görünüşü və digər üstün keyfiyyətlərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə də yüksək qiymətləndirilən Naxçıvan balının və arıçılıq məhsullarının tanıdılmasına muxtar respublikada böyük diqqət göstərilir. Artıq ənənə halını alan festivalların keçirilməsi bu qiymətli ərzaq məhsulunun təqdimi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır.***

# "Arıçılıq məhsulları – bal festivalı" başa çatıb





"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən və iki gün davam edən üçüncü "Arıçılıq məhsulları – bal festivalı" da bu tədbirlərin davamı kimi yaddaqalan oldu. Festivalın yekununda arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqənin nəticələri elan edilib. Müsabiqədə I yerə Ordubad rayonunun Əlahi kəndindən olan arıçı Yaşar Həbibov, Şahbuz rayonunun Şahbuz şəhərindən Allahverdi Allahverdiyev, Babək rayonunun Babək qəsəbəsindən Hüseyn Orucov, II yerə Şərur rayonunun Günnüt kəndindən Fikrət Məmmədov, Naxçıvan şəhərinin 54-cü məhəlləsindən İmran Məmmədov, Culfa rayonunun Kırna kəndindən Həsən Məmmədov, III yerə Culfa rayonunun Kırna kəndindən Fəxrəddin Vəliyev, Kəngərli rayonunun Təzəkəndindən Habil Abbasov, Sədərək rayonunun Sədərək kəndindən Mahir Əliyev layiq görülüblər.

Qaliblərə diplomlar təqdim olunub.

Birinci yerə layiq görülmüş Allahverdi Allahverdiyev sevincini bizimlə bölüşdü:

– Əvvəlcə onu qeyd edim ki, Naxçıvan Muxtar Respublikasının iqlimi və bitki örtüyü burada kənd təsərrüfatının, xüsusilə də arıçılığın inkişafına geniş imkanlar açır. Arıçılıq kənd təsərrüfatının ən maraqlı, gəlirgətirən, qida və müalicəvi baxımdan xeyirli təsərrüfat sahələrindən biridir. Bu təsərrüfatın yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa, təsərrüfatın inkişaf imkanları daha genişdir. Keçirilən festivallar daddamı ilə seçilən Naxçıvan balının tanıdılmasında mühüm rol oynayır. 90 arı ailəsinə qulluq edirəm. Bu gün buraya 100 kiloqram bal gətirmişəm, artıq 30 kiloqramı satılıb. Yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

Müsabiqədə ikinci yerə layiq görülən Şərur rayonunun Günnüt kənd sakini Fikrət Məmmədovla da həmsöhbət olduq. Onun dediklərindən:

– Artıq 18 ildir ki, arıçılıqla məşğulam, 80 arı ailəsinə qulluq edirəm. Onu da deyim ki, doğma kəndim Günnüt işğaldan azad edildəndən sonra arı ailələrini buraya köçürmüşük. Günnütün münbit torpaqlarında bitən güllərdən, müxtəlif otların, dərman bitkilərinin çiçəklərindən toplanan bal daha keyfiyyətli və dadlıdır.

Digər bir müsahibim Kəngərli rayonunun Təzəkənd sakini, müsabiqədə üçüncü yerə layiq görülən Habil Abbasovdur:

– Balı hasilə gətirən arılar təbiətin ən zəhmətkeş məxluqlarıdır. Arı körpə uşaq kimidir. Daim qayğı və baxım tələb edir, qarşılığında isə çəkdiyin zəhmət hədər getmir. Bu il də yaxşı məhsula sahib olmuşam. Bu festivalın təşkil edilməsi isə həmin məhsulu satmağa yaradılan şərait kimi məni də sevindirir. Bunun üçün təşkilatçılara minnətdarlığımı bildirirəm.

Sədərək rayonunun Sədərək kənd sakini Mahir Əliyev balın faydalarından danışaraq deyir:

– Dünya şöhrətli təbib İbn Sina deyib ki, əgər uzun ömür sürmək və cavan qalmaq istəyirsənsə, onda mütləq bal yeməlisən. Əlbəttə, baldan istifadə kortəbii olmamalıdır. Arıçı bildirir ki, festivala gətirdiyi balın hamısı satılıb. Belə festivalların keçirilməsi torpaq adamlarının arıçılığa marağını xeyli artırıb.

Festivalda Gürcüstan Respublikasının Batumi şəhərindən qədim diyarımıza qonaq gələn Salaman Konçalidze ilə də görüşdük. Onun dedikləri:

– Bu, Naxçıvana ikinci səfərimdir. Bu gün burada olduğum, şan-şöhrətini tez-tez eşitdiyim Naxçıvan balının dadına baxdığım üçün çox məmnunam. Yüksək təşkilatçılıq, məhsulların çeşid çoxluğu, ən əsası isə qonaqpərvərlik mənə öz doğma vətənimi xatırlatdı. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə də tanış olmaq imkanı əldə etdim. Festivalların keçirilməsi üçün belə bir məkanın seçilməsi çox gözəldir.

Qeyd edək ki, festivalda 6426 kiloqram bal satılıb, baldan hazırlanmış müxtəlif məhsulların da satışı həyata keçirilib.

Həm festivalda iştirak edənlərin çoxluğu və burada nümayiş etdirilən məhsulların çeşidliliyi, həm də festivalda yerli əhali və xarici qonaqların çoxluğu, buradakı qələbəlik onu göstərirdi ki, belə festivallara maraq böyükdür.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Təhsil müəssisələri və şahmat məktəbləri arasında növbəti məşğələ



*Bu gün muxtar respublikamızda şahmatın inkişafına xüsusi diqqət və qayğı göstərilir, şəhər və rayonlarda şahmat məktəbləri tikilərək zəka sahiblərimizin ixtiyarına verilir. Maddi-texniki bazası gücləndirilən bu məktəblər müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunub, distant və interaktiv təhsilin təşkili üçün hər cür şərait yaradılıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin həlli istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi Şahmat Federasiyası mütəmadi olaraq şahmat məşğələləri keçirir.

Dünən Naxçıvan Şahmat Mərkəzində növbəti məşğələ təşkil olunub. Beynəlxalq hakim Emin Hacıyevin tədris etdiyi məşğələ 200-dən artıq təhsil müəssisəsində elektron lövhədən interaktiv şəkildə izlənilib. Şəhər və rayon şahmat məktəbləri arasında məşğələni isə 200-ə yaxın şahmatçı elektron lövhə vasitəsilə izləyib. Şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunan və qabaqcıl şahmat müəllimlərinin tədris etdiyi bu məşğələlərin keçirilməsində məqsəd şahmatın kütləviliyinə nail olmaq, şagirdlərin şahmata olan marağını artırmaq və onlar arasında rəqabət mühitini formalaşdırmaqdır.

# Yeni intellekt oyunu keçirilib



***Naxçıvan Tibb Kollecində Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar gənclər arasında muxtar respublikada ilk dəfə olaraq "Poliqon" strateji intellekt oyunu keçirilib.***

Dörd mərhələdən ibarət oyunda "Kəşfiyyat" adlı ilk mərhələnin məqsədi növbəti mərhələlərdə strateji gedişləri müəyyən etmək üçün rəqibin güclü və zəif fərdlərinin aşkara çıxarılmasıdır. Sonrakı "Hədəf" mərhələsinin məqsədi rəqib komandanın zəif fərdindən istifadə edərək öz komandasının üstünlüyünü təmin etməkdir. "Girov" mərhələsinin məqsədi rəqib komandanın ən güclü fərdini oyundan kənarlaşdıraraq gücünü zəiflətməklə öz komandasına üstünlük qazandırmaqdır. "Zəfər" mərhələsinin məqsədi isə komandaların ən güclü fərdlərindən istifadə edərək öz üstünlüklərini təmin etməkdir.

Oyunda komandalar mərhələlərə uyğun olaraq səsləndirilən suallara cavab verməklə öz xal nominallarını artırıblar. Sonda ən çox xal toplayan komandalar qalib hesab olunublar. Belə ki, "Aran" komandası qalib adını qazanıb. "Turan" komandası ikinci, "Diplomat" komandası isə üçüncü olub.

Qalib komandalar və komanda üzvləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar. Oyunda "Zirvə" komandası fəal iştirakına görə diploma layiq görülüb. Yarış Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə "Poliqon" strateji intellekt oyununun yaradıcı heyəti tərəfindən keçirilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Memarlıq və mühəndislik

***Kafedralar üzrə müdir vəzifəsini tutmaq üçün***

1. Nəqliyyat və informasiya texnologiyaları
2. Meliorasiya və su təsərrüfatı mühəndisliyi
3. Tibbi klinik fənlər
4. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi
5. Bədən tərbiyəsi və idman
6. Ümumi riyaziyyat
7. Azərbaycan dili və ədəbiyyat
8. Jurnalistika və kitabxanaçılıq
9. Beynəlxalq münasibətlər
10. Rus dili və Şərq dilləri
11. Zoologiya
12. Musiqi tarixi və nəzəriyyəsi
13. Ümumi təbabət və gigiyena

***Kafedralarda boş olan vəzifələri tutmaq üçün***

1. Təsviri incəsənət – müəllim – 1 yer; baş müəllim – 1 yer; dosent – 1 yer;
2. Dünya iqtisadiyyatı və menecment – müəllim – 1 yer; dosent – 1 yer;
3. İqtisadiyyat – müəllim – 1 yer; müəllim – 2 yer (0,5 ştat);
4. İngilis dili və metodika – müəllim – 2 yer;
5. İngilis dili və tərcümə – müəllim – 1 yer;
6. Azərbaycan dili və ədəbiyyat – baş müəllim – 1 yer; professor – 1 yer;
7. Musiqi təlimi – baş müəllim – 1 yer;
8. Xalq çalğı alətləri – baş müəllim – 1 yer;
9. Bədən tərbiyəsi və idman – baş müəllim – 3 yer;
10. Pedaqogika və psixologiya – dosent – 2 yer;
11. Hüquq fənləri – müəllim – 2 yer; baş müəllim – 1 yer; dosent – 1 yer;
12. Bələdiyyə və turizm – müəllim – 1 yer; müəllim – 1 yer (0,5 ştat); dosent – 1 yer;
13. Fəlsəfə və sosial iş – dosent – 1 yer; professor – 1 yer; dosent – 1 yer (0,5 ştat);
14. Botanika – dosent – 2 yer (0,5 ştat);
15. Kimya – dosent – 1 yer;
16. Energetika mühəndisliyi – dosent – 1 yer;
17. Memarlıq – baş müəllim – 1 yer ;
18. Ümumi nəzəri fizika – dosent – 1 yer;
19. Jurnalistika və kitabxanaçılıq – dosent – 1 yer;
20. Fortepiano – müəllim – 1 yer;
21. Teatr və mədəniyyətşünaslıq – dosent – 1 yer;
22. Orkestr alətləri və dirijorluq – dosent – 1 yer;
23. Ümumi riyaziyyat – baş müəllim – 1 yer (0,5 ştat); baş müəllim – 2 yer; dosent – 1 yer;
24. Ümumi təbabət və gigiyena – müəllim – 1 yer; baş müəllim – 1 yer ;
25. Tibbi klinik fənlər – müəllim – 1 yer; dosent – 1 yer;
26. Baytarlıq təbabəti – baş müəllim – 2 yer;
27. Musiqi tarixi və nəzəriyyəsi – professor – 1 yer;
28. Mühasibat uçotu və audit – professor – 1 yer (0,5 ştat);

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefon :(036) 545-23-66/10-01***

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 776